# 20 Yanvar Ümumxalq Hüzn Günü qeyd olundu

## Azadlığa aparan yol

20 Yanvar faciəsinin 25-ci ildönümü bütün ölkədə olduğu kimi rayonumuzun ümumtəhsil məktəblərində də geniş qeyd olunur. Nicat Apayev adına şəhər 4 saylı tam orta məktəbində keçirilən dəyirmi masa da belə tədbirlərdən biridir.

Ilk öncə məktəbin müəllim və şagird kollektivi şəhidlər xiyabanını ziyarət etdi. Şəhidlərin məzarları önünə tər qərənfillər düzüldü. Daha sonra tədbir məktəbdə davam etdirildi. İlk olaraq şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dəyirmi masada məktəbin tarix müəllimləri Nuriyyə Məmmədova, Ağazadə Məmmədyarova, Əsəd Əmirfətov çıxış edərək Azərbaycan xalqının şanlı və keşməkeşli tarixindən, 20 yanvar faciəsinin səbəblərindən, onun ağır nəticələrindən danışdılar.

Məktəbin direktoru Q. Musayeva bu faciə gününü qürur günü, azadlığa gedən yolun başlanğıcı kimi qiymətləndirdi.

Tədbirin sonunda şagirdlərin ifasında ədəbi-bədii kompozisiya göstərildi.

Tədbirdə Qəbələ Rayon Təhsil Şöbəsinin metodistləri Tərbiyə İsayeva və İbrahim Faxlulov iştirak etmişlər.

## «Həyat üçün doğulmuşuq, Vətən üçün ölməliyik»

Zalam kənd tam orta məktəbi özünəməxsus ənənələri olan, təhsil uğurları ilə fərqlənən qocaman bir təhsil müəssisəsidir. Məktəbimizdə müxtəlif tədbirlərin keçirilməsi bir ənənə şəklini almışdır.

Bu gün çağdaş təhsil sistemimizin qarşısında duran ən ümdə vəzifələrdən biri müasir gəncliyin vətənpərvərlik ruhunda tərbiyə olunmasıdır. Məhz bu missiyanın yerinə yetirilməsi baxımından məktəbimizdə növbəti tədbir keçirilmişdir. 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş bu tədbir bir aydan artıq davam edən silsilə tədbirlərin yekunu sayıla bilər.

Şəhidsiz torpaq, itkisiz qələbə, qansız istiqlal olmur. Bu yolda öz canından keçənlər əbədi olaraq adlarını vətən tarixinə həkk edirlər. Bizim isə borcumuz Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş igid oğul və qızlarımızın xatirəsini əziz tutmaqla bərabər, gənclərimizi bu ruhda tərbiyə etməkdir. Elə keçirdiyimiz tədbirlər də bu missiyanın yerinə yetirilməsinə xidmət edir.

Tədbiri giriş sözü ilə məktəbin direktoru Sadiq Zahidov açdı. 20 Yanvar şəhidlərinin ,eləcə də məktəbimizin adını daşıdığı şəhid Sənan Hacıyevin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Sonra məktəbin tarix müəllimi Fərqanə Ağayeva geniş məruzə ilə çıxış etdi.

Tədbirin ən maraqlı hissəsi məktəbimizin dil-ədəbiyyat müəllimləri N. Qəribova və P. Hacıyevanın təşkilatçılığı ilə hazırlanan ədəbi-bədii kompozisiya oldu.

«Həyat üçün doğulmuşuq, Vətən üçün ölməliyik»—adlanan ədəbi-bədii kompozisiya 20 Yanvar şəhidlərindən biri gənc, nakam şair Ülvi Bünyadzadənin şeirləri əsasında hazırlanmışdı. IV sinif şagirdi Sadiq Hacıyev, VI sinif şagirdi Elnarə Rəşidova, XI sinif şagirdi Şəfəq Mahmudova öz məharətli çıxışları ilə xüsusilə fərqləndilər.

Sonda məktəbin ibtidai sinif müəllimi Rəvanə Ağayeva öz yeni şeirlərini oxudu.

Ümumiyyətlə, 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş tədbir öz emosionallığı ilə yadda qalan oldu.

Maraqlı və yaddaqalan tədbirin hazırlanmasında zəhməti olan hər kəsə məktəb rəhbərliyi tərəfindən təşəkkür edildi.

**Pərvanə AĞAYEVA,**
**Zalam kənd tam orta məktəbinin müəllimi.**

# Poeziya həvəskarlarımızın 20 Yanvar duyğuları

## Müstəqillik naminə

Şaxtalı qış gecəsi
Qudurdu imperiya.
Kömək gələn olmadı
İniltiyə, haraya.
İnsanları qırdılar
Gəzərək küçə-küçə.
Döndü qan çanağına
Şanlı Bakı o gecə.
Əzildi tank altında
Neçə oğul, neçə qız.
Ağ duvaqlı gəlinlər
Əbədi qaldı yalqız.
Şəhidlərin qanıyla
Suvarıldı küçələr.
O gecə yetim qaldı
Dilsiz məsum körpələr.
Yas tutub şəhidlərə
Tar-kaman da ağladı.
Ana, bacı naləsi
Ürəkləri dağladı.
20 Yanvar gecəsi
Heç zaman çıxmaz yaddan.
Müstəqillik naminə
Şəhidlər verdilər can.

**Emin BARATOĞLU,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

## Kimə deyim bu dərdi?

***Qəlbimizdə azadlığın müstəqilliyin vətən sevgisinin təməlini qoymuş azadlıq carçılarını heç zaman unutmayacağıq.***

Qar deyil ki, günəş vura əriyə,
Yara deyil məlhəm çəkəm giriyə,
Dağ çəkilən milyonlardan biriyəm,
Kimə açım, kimə deyim bu dərdi?
Qanadlandı ölüm yüklü güllələr,
Sinəmizdə çiçək açdı lalələr,
Yaddan çıxmaz o gercəkli nalələr,
Kimə açım, kimə deyim bu dərdi?
Tumarlanır bostanıma daş atan,
Addımını əyri atan, çaş atan,
O, silahlı, mən əlimdə quşatan,
Kimə açım, kimə deyim bu dərdi?
Topladılar yüz dərənin suyunu,
Doldursunlar suya həsrət quyunu,
Başımıza açdılar min oyunu,
Kimə açım, kimə deyim bu dərdi?
Kim unudar iyirmisi yanvarı,
Əbədilik milyon ilin qübarı,
Yüz altmış il vətən yarı, biz yarı,
Kimə açım, kimə deyim bu dərdi?

**Nazxanım ABDULLAYEVA,**
**Tikanlı kənd tam orta məktəbin XI sinif şagirdi.**

## Ey Vətən!

Dəhşətli, qanlı gecə,
Neçə yol, neçə küçə
Qızıl qana boyandı.
Səhər doğma Bakımız
Faciəylə oyandı.
İgid oğullarımız
Düşmənin qarşısında
Sipər kimi dayandı!

Sınadı zaman bizi, -
Sınadı yaman bizi!
Anaların naləsi,
Körpələrin vay səsi
Deyirdi, cəllad, dayan!
Vicdanı susmuş düşmən
Xalqa vermədi aman!
Fəqət, yenə düşmənin
qabağında sınmadın,
əyilmədin, ey Vətən!
Tarixin sınağından
alnı açıq çıxaraq;
Üçrəngli bayrağın da
Günəş kimi qalxaraq
dalğalandı səmanın
əngin fəzalarında!
Fəqət heç vaxt düşmənin
qarşısında alçalıb,
əyilmədin, ey Vətən!

**Aytəkin BABAYEVA,**
**A. Rəhimov adına Yeni Dizaxlı kənd tam orta məktəbin müəllimi.**

## 20 yanvar gecəsi

Olmadı haraya gələn,
Köməksiz qaldı vətən,
Od ələndi qəfil göydən
20 Yanvar gecəsi.
Düşmənlər hücuma keçdi,
Silahsız milləti biçdi,
Onlar qanımızı içdi
20 Yanvar gecəsi.
Güllələr göydə sayrışdı,
İnsanlar çaş-baş qalmışdı,
Yer-göy elə bil alışdı
20 Yanvar gecəsi.
İgidlər şəhid olurdu,
Analar saçın yolurdu,
Gözləri yaşla dolurdu,
20 Yanvar gecəsi.
Vətən azadlıq qazandı,
Üçrəngli bayrağı ucaldı,
Tarixə qanla yazıldı,
20 Yanvar gecəsi.

**Rəciyyə MEYFULLAQIZI.**

## Şəhidlərə bir laylay

Bir azəri yurdunun balasıyam, balası,
Şəhidlərə bir laylay çalasıyam, çalası.
Axdı Xəzərə sarı şəhidlərin qan çayı
Saya gəlmədi Bakıda ölənlərin sayı.
Allah, getdi həmin gün neçə oğul, neçə qız,
Neçə körpə uyudu o gün haqsız-hesabsız.
İnsan necə kəsdi neçə insan nəfəsini,
Köksündə qarşıladı topdan çıxan mərmini.

Nə ad verim dünənki keşik çəkən orduma?
Bu gün matəm gətirdi mənim doğma yurduma.
Dünən öz əllərilə əsgər göndərən ana,
Bu əsgər əllərilə bulaşıbdır al-qana.
Belə düşmənçiliyi yozmaq olmaz heç yana.
Zaman bir tarix yazdı o gün Azərbaycana.

**Mehriban ƏLİYEVA,**
**Çarxana kəndi.**